

# Nəsimi rayonunda media təmsilçiləri ilə bayram görüşü

***Paytaxtın Nəsimi rayonunda yaranmış ənənənin davamı olaraq, bu il də 22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə Rayon İcra Hakimiyyətində ölkə mediasının təmsilçiləri ilə görüş keçirildi. Qarabağ zəfərindən sonra ikinci dəfə yüksək qələbə əhval-ruhiyyəsi ilə qeyd olunan media bayramının aparıcı mövzusu da ərazi bütövlüyümüzün təmin edilməsinə layiqli informasiya dəstəyi yaratmış jurnalistlərin qailb xalqımızın və müstəqil dövlətimizin köklü maraqlarını axıradək müdafiə etməsi əzmi oldu.***

Görüşü giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov mərasimə toplaşanları Milli Mətbuat və Jurnalistika Günü münasibətilə səmimi təbrik etdi. Rayon rəhbəri bildirdi ki, əsası 147 il əvvəl böyük maarifçi-demokrat, misilsiz xalq xadimi və təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olmuşdur. Jurnalistikamız həmişə mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmişdir. Ona görə də milli jurnalistika günü ölkəmizdə hər il ümumxalq təntənəsi ilə qeyd olunur, xalqın jurnalistlərə dərin ehtiramı yüksəkdən səslənir.

Asif Əsgərov daha sonra qeyd etdi ki, mediamız müstəqillik illərində demokratik cəmiyyət quruculuğunun da önünüdə getmiş, ümummilli lider Heydər Əliyevin ölkədə sabitlik və həmrəylik yaradılması, ölkədə əsaslı islahatlar keçirilməsi, iqtisadi-sosial inkişafın təmin edilməsi ilə bağlı geçəkləşdirdiyi tarixi tədbirlərə, Prezident İlham Əliyevin hərtərəfli tərəqqi və yeniləşmə siyasətinə, dövlət başçısının Qarabağın işğaldan azad edilməsi ilə bağlı qalibiyyətli mübarizəsinə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbər Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata kerçirilən genişmiqyaslı humanitar layihələrə önəmli informasiya dəstəyi vermişdir. Nəsimi rayonu ilə mediamızın sıx əməkdaşlığı paytaxtımızın bu mərkəzi rayonunda geniş abadlıq-quruculuq işlərinin uğurla aparılmasına, obyektiv ictimai rəyin formalaşmasına əlverişli şərait yardır.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov anadilli demokratik mətbuatımızın milli oyanış və istiqlal məfkurəsinin ərsəyə gəlməsində oynadığı maarifləndirici roldan və böyük Həsən bəy Zərdabinin "Əkinçi qəzeti" ilə açdığı yolun milli dövlətçiliyimizin bərpası ilə nəticələnməsindən söz açaraq, milli jurnalistikamızın son əsr yarımda həmişə xəlqi xarakterini qoruyub saxlamasından söz açdı. O, bildirdi ki, müstəqillik dövründə milli mediamız söz azadlığının yaratdığı imkanlardan bəhrələnərək ölkənin demokratik inkişafının informasiya ruporuna çevrilmişdir.

"Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov da milli jurnalistikamızın həmişə ictimai tərəqqi ideyalarının önündə getdiyini, ölkə həyatının zəngin salnaməsini yaratdığını vurğuladı, Azərbaycan dövlətinin media siyasətinin söz azadlığı prinsiplərinin axıradək bərqərar edilməsinə hərtərəfli imkan və şərait yaratdığını vurğuladı. Baş redaktor bildirdi ki, müstəqillik illərində ölkəmizin qazandığı tarixi uğurlarda mediamızın səfərbəredici rolu, yaratdığı aşkarlıq şəraiti jurnalistika tariximizin yeni parlaq səhifələrinə çevrilmişdir.

Toplantıda Azərbaycan müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin müstəsna diqqət və qayğısı ilə ölkəmizdə azad jurnalistika prinsiplərinin ardıcıl gerçəkləşməsindən, 1998-ci ildə senzuranın ləğvinin jurnalistika tariximizdə inqilabi addım olmasından, Prezident İlham Əliyevin kütləvi informasiya vasitələrinin problemlərinin həlli və jurnalistlərin sosial müdafiəsi ilə bağlı həyata keçirdiyi ardıcıl tədbirlərdən məmnunluqla söz açıldı, milli mediamızın zamanın sınaqlarından çıxmış ənənələrinə sadiqlik ifadə olundu.

Görüşdə qeyd edildi ki, hazırda ölkəmizdə cəmiyyətimizin etibarlı media şəbəkəsini yaradan çoxsaylı mətbuat orqanı, agentlik, sayt, teleradio şirkəti fəaliyyət göstərir. Azad jurnalistikanın inkişaf etdirilməsi məsələləri daim dövlətin diqqət mərkəzindədir, jurnalist əməyi həmişə yüksək qiymətləndirilir. Bildirildi ki, jurnalistikamız bundan sonra da müstəqil dövlətimizin, xalqın köklü maraqlarının yanında olacaq, çağdaş çağırışları zamanında və doğru-düzgün cavablandıracaq.

Görüşün sonunda mediamızın inkişafında fəallıq göstərən və rayonun həyatı ilə sıx əlaqə saxlayan bir qrup jurnalistə Nəsimi Rayon İcra Hakimiyyətinin hədiyyələri təqdim olundu.

***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 22 iyul.- S.10.